# Əsaslandırılmış mühakimələr şagird təfəkkürünün ən güclü psixoloji məhsuludur

**Lalə Cahangirova**
*fəlsəfə doktoru hazırlığı üzrə doktorant,*
*Gəncə Dövlət Universiteti*
**E-mail:** cahangirov@ mail.ru

**Rəyçilər:** ped.ü.e.d., prof. A.N. Abbasov,
ped.ü.f.d., L.A. Məmmədli

**Açar sözlər:** psixoloji müşahidə, subyektiv səciyyəli səhvlər, özünüyoxlama, əsaslandırılmış mühakimələr, özünəinam

**Ключевые слова:** психологическое наблюдение, субоспецифические ошибки, самопроверка, обоснованные суждения, самоуверенность

**Key words:** psychological observation, sub-specific errors, self-reported, justified judgments, self-esteem

Kiçik yaşlı məktəblilərdə öz fikir və mülahizələrinin düzgünlüyünə əmin olmağa tələbatın yaranması həm də onunla nəticələnir ki, şagird təlim prosesində öz vəzifələrinə, əqli nəticələrinə daha şüurlu şəkildə yanaşır, səmərəli təlim fəaliyyəti göstərməsi üçün özünəinam keyfiyyətləri tərbiyə etmək zərurətini dərk edir. Deməli, əsaslandırılmış mühakimələr yürütmək bacarıqları şagirdin yüksək şüurluluğu ilə, özündə öz fikir və mühakimələrinə nəzarət priyomlarını düzgün mənimsəmək meylinin yaranması ilə bağlıdır.

Məlumdur ki, hər bir uşaq bütün təlim fəaliyyətində öz fikir və mülahizələrinin düzgün olub-olmamasına nəzarət etmək təşəbbüsündə olmur. Bunun üçün o, özünün təlim fəaliyyətini aydın dərk etməli, öz mühakimələrinin düzgünlüyünü özü təhlil etməyi bacarmalıdır. Bu isə ibtidai sinif şagirdlərinin şüur və düşüncələri ilə yanaşı, onların didaktik imkanlarının da inkişaf etməsini tələb edir. Tədqiqat göstərdi ki, belə olmadıqda, şagird öz mühakimələrini təhlil edib onun düzgünlüyünü müəyyən edə bilmir. Özünə nəzarət etmək üçün şagird öz təlim fəaliyyətinə «kənardan» baxmağı, öz fikirlərinə tənqidi yanaşmağı bacarmalıdır. Məşhur filosof Sokratın dediyi kimi, «öz zəif cəhətlərinə bələd olmayan insan, özünə də bələd deyil».

Öz əqli fəaliyyətlərinin düzgünlüyünü əsaslandıra bilmək bacarıqlarının kiçik yaşlı məktəblilərə aşılanması zamanı müəllim, prof. R.İ. Əliyevin xüsusi dəyər verdiyi iki psixoloji əlaməti daim nəzarətdə saxlamalıdır. Birinci halda şagird öz nəticəsinin düzgünlüyünə əmin olduqdan sonra özü haqqında yüksək fikrə düşmək bəlasına mübtəla olmamalı. İkinci halda, özünün səhvlərini görüb özünün yararsızlığı fikrinə düşməməlidir. Bu fikir onun öz qüvvəsinə inamını azaldır, təlim fəaliyyətinə mənfi təsir göstərir ( 2, 35).

Tədqiq olunan problemlə bağlı aparılmış psixoloji müşahidələrdən aydın olur ki, kiçik yaşlı məktəblilərdə əsaslandırılmış mühakimələr yürütməyə tələbat tərbiyəsinə onların təlim prosesində qarşılaşdığı çətinliklər də, öz səhvlərini hiss edə bilmələri də əsaslı şəkildə təsir göstərir. Təlim prosesində kiçik yaşlılar əsasən iki cür səhvlərlə qarşılaşırlar. Bir qrup səhvlər bilavasitə şagirdin özündən asılı olmur. Belə səhvlər psixologiyada obyektiv səbəblərdən doğan səhvlər adlandırılır ki, bunlar da, fənn kurikulumlarının, dərsliklərin, təlimin təşkilinin, müəllimin pedaqoji səriştəsizliyinin və s. nəticəsində yaranır. Digər qisim səhvlər bilavasitə şagirdin özündən asılı olur, subyektiv səciyyə daşıyır və bu halda, səhvlər şagirdin təlim bilikləri və bacarıqları ilə birbaşa bağlı olur. Buraya şagirdin özünəinamsızlığı, fikirlərindəki

qətiyyətsizliyi, utancaqlığı, qeyri-müstəqilliyi, təlqinə qapılmağı və s. keyfiyyətləri də daxildir. Belə keyfiyyətlər ibtidai sinif şagirdlərində öz mühakimələrindəki, verdikləri cavablardakı səhvləri görməyə, onu aradan qaldırmağa meyl və təşəbbüs göstərməsinə maneəçilik törədir. Mühakimələrini əsaslandırılmış şəkildə qurmaq, başlıca olaraq şagirdin öz fərdi psixoloji keyfiyyətlərindən irəli gələn nöqsanları və səhvləri də aradan qaldırmaqla əlaqədardır. Ona görə də, ibtidai sinif müəllimi müntəzəm olaraq şagirdinin öz təlim və tərbiyəvi fəaliyyətini nəzarətdə saxlamalarının, öz mühakimələrinə daim diqqət etmələrinin, öz səhvlərinin müəyyənləşdirməsinin, onların aradan qaldırılmasına səy, təşəbbüs göstərilməsinin qayğısına qalmalıdır. Mühakimələri və sonda gəldiyi nəticələr düzgün olduqda belə, şagird onun doğruluğuna bir daha əmin olmağa, onu bir daha əsaslandırmağa meylli olmalıdır.

Kiçik yaşlı məktəblilərdə əsaslandırılmış mühakimələr yürütmək bacarıqlarını möhkəm aşılatmaq istəyən müəllim təlim prosesində bu işlə müntəzəm surətdə məşğul olmadıqda, təsadüfdən-təsadüfə bu fikrə düşdükdə bu sahədə lazımı nailiyyət əldə edə bilməz. Buna görə də kiçik yaşlı məktəblilərdə əsaslandırılmış mühakimələr yürütmək bacarıqlarını möhkəm aşılamaq üçün onları bu sahədə planauyğun, müntəzəm və şüurlu surətdə çalışdırmaq lazımdır. Kiçik yaşlı məktəblilərdə öz fikirlərinin düzgünlüyünü əsaslandırmaq meylləri birdən-birə yaranmır. Bu, əsasən təlim prosesində, həm də aldıqları nəticələrin doğruluğunu yoxlamaq, onun düzgünlüyünə bir daha əmin olmaq mərhələsində daha tez meydana çıxır, onların əqli nəticənin düzgün olduğunu sübut etmək üçün məntiqi addımlar atmasına səbəb olur. Prof. Ə.S.Bayramovun özünütərbiyə ilə əlaqədar araşdırmalarına əsaslansaq, onda belə çıxır ki, əsaslandırılmış mühakimələr yürütmək meylinin yaranması da xüsusi psixoloji qanunauyğunluğa malikdir. Buna görə də, ilk növbədə kiçik məktəb yaşlarından başlayaraq mühakimələrini əsaslandırılmış şəkildə qurmaq meyllərinin yaranması prosesini nəzərə almaq faydalı olar (1, s.36).

Prof.Ə.S.Bayramov özünənəzarəti özünütərbiyənin daxili komponentlərindən biri kimi qəbul edir və bunu kiçik yaşlı məktəblilər üçün «özünü düzəltmə» termini kimi işlədir (1, 37) və göstərir ki, bu meyllərin «elementləri nisbətən erkən yaşlarından özünü büruzə verir» (1, 36).

Aparılmış psixoloji müşahidələrdən o da aydın oldu ki, hətta məktəbəqədər yaşlı uşaqlarda «düzgün», «doğru», «səhv» və «yalan» terminləri, onların mahiyyəti haqqında müəyyən təsəvvürlər yaranır. Uşaqlar anlamağa başlayırlar ki, hansı hərəkətlərinə, hansı sözlərinə, hansı fikirlərinə görə onlara «düzgün», «doğru» deyirlər, onların hansı cavablarından razı qalırlar, hansılara görə onlara «səhv», «yalan», «doğru olmayan» rəylər söylənilir və bəzi hallarda da onlar hətta məzəmmətlərə məquz qalırlar. Buna görə də kiçik yaşlı məktəblilərdə «düzgün» olmağa həvəs, meyl baş qaldırır, onlarda «düzgünlüyə» cəhd və təşəbbüskarlıq kimi ünsürlər müşahidə olunmağa başlayır. Bu halda kiçik yaşlı məktəblinin özü ilkin mərhələdə bilavasitə aydın surətdə dərk etməsə də, «düzgünlüyünü» sübut etməyə meyl göstərir. Kortəbii səciyyə daşıyan bu meyllərdə «əsaslandırılmış mühakimələr yürütmək bacarıqlarının» ünsürləri nəzərə çarpır.

Kiçik yaşlı məktəblilərdə öz fəaliyyətlərinin düzgünlüyünü əsaslandırmaq, onu sübut etmək cəhdlərinin olması psixoloq-alimlərin də müşahidəsindən kənarda qalmamışdır. Məsələn, prof. Ə.S. Bayramov yazır ki, kiçik yaşlı məktəblilər «özlərinin qorxmadıqlarını sübuta yetirməkdən ötrü müəyyən vasitələrə əl atırlar. Dözümlü olduqlarını göstərmək üçün hündür yerdən atlanmaq, güclərindən artıq ağırlıq qaldırmaq və s. kimi «sübutlardan» çəkinmirlər. Bu cəhdlər özünütərbiyə təsiri bağışlayır» (1, 39). Müəllif bu keyfiyyətləri özünütərbiyənin ilk ünsürü kimi qəbul edir. Tədqiqat göstərdi ki, bu keyfiyyətlər

özünütərbiyənin tərkib hissəsi olan öz fikir və mühakimələrinin də, həmçinin öz təlim fəaliyyətlərinin nəticəsinin doğruluğunu sübut etmək prosesinin ilkin elementləri hesab edilə bilər və bunlar nəzərdən qaçırılmamalıdır. Düzdür, burada əsaslandırılmış mühakimələr yürütmək bacarığının ilkin elementləri vardır, lakin əsil əsaslandırılmış mühakimələr yürütmək şagirdin öz təlim fəaliyyətinə yaxşı bələd olmasını, bu fəaliyyət prosesini təhlil etməyi, öz biliklərindəki güclü və zəif cəhətləri qiymətləndirməyi bacarmağı tələb edir. Lakin aparılan müşahidələrin və keçirilmiş müəyyənedici eksperimentin nəticələri göstərir ki, mövcud təlim prosesi kiçik yaşlı məktəbliləri göstərilən səviyyəyə yüksəldə bilmir. Ona görə də kiçik yaşlı məktəblilərdə əsaslandırılmış mühakimələr yürütmək vərdişlərinin və öz mühakimələrinin düzgünlüyünü sübut etmək bacarıqlarının formalaşdırılması diqqət mərkəzindən kənarda qalır.

Problemin psixoloji əsaslarını araşdırarkən onu da müəyyən etdik ki, kiçik yaşlı məktəblilərdə əsaslandırılmış mühakimələr yürütmək bacarıqlarının aşılanması və başa çatması işini müəyyən yaş dövrü ilə məhdudlaşdırmaq düzgün deyil. Şagirdlərdə tam əsaslandırılmış mühakimələr yürütmək bacarıqlarının formalaşdırılmasının başa çatması yalnız bu və ya digər məhdud yaş dövrünün məhsulu deyildir. O, bilavasitə düzgün və zəncirvari təşkil olunmuş, uzun pedaqoji prosesin, xüsusən də, təlim və tərbiyə işinin nəticəsidir. Buna görə də, kiçik yaşlı məktəblilərdə əsaslandırılmış mühakimələr yürütmək bacarıqlarına tələbat müxtəlif yaş dövrlərində əmələ gələ bilər. Hətta məktəbəqədər yaşlı uşaqlar müxtəlif təsirlərlə öz fikirlərinin düzgünlüyünü «əsaslandırmağa» cəhdlər edirlər. Çox vaxt şagirdlər süni vasitələrdən (arqumentlərdən) istifadəyə meyllənirlər. Bu da, kiçik yaşlı məktəblilərdə erkən yaşlardan öz mülahizə və mühakimələrinə diqqət etmək, onlara nəzarət etmək meyllərinin olduğunu bir daha təsdiq edir. Bu meyllər, xüsusən III-IV sinif şagirdlərində daha aydın şəkildə nəzərə çarpır.

Tədqiqatın gedişində onu da müəyyənləşdirmək mümkün oldu ki, müəllimin kiçik yaşlı məktəblilərdə əsaslandırılmış mühakimələr yürütmək bacarıqlarının formalaşdırılması istiqamətində apardığı məqsədyönlü işin nəticəsində hər bir şagird nəinki öz üzərinə müəyyən təəhhüd göstərməyi, öz təlim fəaliyyətini təhlil etməyi, hətta özünə əmr verməyi və öz əqli fəaliyyətinə nəzarət etməyi də bacara bilir. Hər bir şagird bu prosesdə özünün zəif və qüvvətli cəhətlərini aşkar edib öz bilik və bacarıqlarının gücünü düzgün qiymətləndirməyə, öz mühakimələrinin düzgünlüyünü əsaslandırarkən uyğun və təsirli vasitələr (arqumentlər) axtarıb tapmağa meyllənirlər.

Əsaslandırılmış mühakimələr yürütmək, yeri gəldikdə öz fəaliyyətlərinin düzgünlüyünü sübut etməyi bacarmaq hər bir məktəbliyə ömrü boyu lazımdır. Bu bacarıqlar həyati olaylarla və tədris materialları ilə bir başa əlaqəli şəkildə, özünənəzarət vasitəsi kimi formalaşdırıldıqda şagird nəinki öz bilik və bacarıqlarının tətbiqi çevikliyini artırır, həm də özündə düzgün elmi mühakimələr yürüdə bilmək, möhkəm əqidəni-insanlar üçün xarakterik olan keyfiyyətləri tərbiyə etmək imkanları qazanır. Psixoloqlar sübut etmişlər ki, «hər bir şagirdin öz üzərində şüurlu nəzarəti onu inanılmış əqli fəaliyyətə alışdırır, nəticədə, o istər əmək, istərsə də təlim fəaliyyətinin çətinliklərindən qorxmur». İnanılmış əqli fəaliyyət isə yalnız o zaman şagirdin həqiqi nəzarətçisinə çevrilə bilər ki, o, bu fəaliyyətə dərindən məhəbbət bəsləsin, onu sevsin. Yalnız belə bir məhəbbət kiçik yaşlı məktəblini öz mühakimələrinə, öz təlim fəaliyyətinin gedişinə və mərhələlərinə, aldığı nəticələrin düzgünlüyünü yoxlamağa və bu işdə düzgün, düşünülmüş, reallığına inandığı mühakimələr yürütməyə məcbur edə bilər. Bu işdə kiçik yaşlı məktəblinin özünü yoxlamağa təhrik, məcbur edə bilməsi, öz iradəsinə qalib gəlməsi, sözün əsl mənasında, onlarda əsaslandırılmış mühakimələr yürütmək bacarıqlarının

formalaşdırılması üçün əsaslı zəmin yaradır.

**Məqalənin aktuallığı.** Şagird təlim prosesində öz vəzifələrinə, əqli nəticələrinə daha şüurlu şəkildə yanaşmalı, səmərəli təlim fəaliyyəti göstərməsi üçün özünəinam keyfiyyətləri tərbiyə etmək zərurətini dərk etməlidir. Əsaslandırılmış mühakimələr yürütmək bacarıqlarının şagirdin yüksək şüurluluğu, özündə öz fikir və mühakimələrinə nəzarət mexanizmini düzgün mənimsəmək meylinin yaranması ilə bağlı olduğundan məqaləni aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, məqalədə tədqiq olunan problemlə bağlı aparılmış müşahidələrin nəticələrindən geniş istifadə edilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllimləri, eləcə də tələbə və magistrantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Bayramov Ə.S. Gənclik və özünütərbiyə haqqında söhbət. Bakı, 1999.
2. Əliyev R.İ. Təhsilə psixoloji xidmətin sosial-psixoloji məsələləri // İbtidai məktəb və məktəbəqədər tərbiyə, 2007, № 3.
3. Əliyev R.İ. Mentalitet. Bakı: Elm və Təhsil, 2009.

**Л. Джахангирова**

## Обоснованные суждения являются самым сильным психологическим продуктом мышления ученика
## Резюме

Из проведенных психологических наблюдений ясно, что во время воспитания у младшеклассников необходимости выдвигания обоснованных суждений существенные влияния на них оказывают трудности, с которыми они сталкиваются в процессе обучения, а также их способность воспринимать свои ошибки. Группа ошибок напрямую зависит от самого ученика, субъективна, и в этом случае ошибки напрямую связаны с его навыками и способностями. Сюда включены не уверенность ученика, нерешительность в мыслях, застенчивость, несамостоятельность, скованность и др. качества. В этом деле у младшеклассников спровоцируются самопроверка, самопринуждение, самоконтроль, которые не только устраняет эти ошибки, а также создает прочную основу для формирования у них навыков выдвигания обоснованных суждений.

**L. Jahangirova**

## Essential judgments are the strongest psychological product of student thinking
## Summary

From the psychological observations, it has become clear, that small-sized schoolchildren have a substantial impact on the difficulties they encounter during their learning process and their ability to perceive their mistakes while maintaining a justified judgment. A group of errors directly depends on the student himself, is subjective and in this case errors are directly linked to the student's learning skills and abilities. Here, the student's self-esteem, indifference in his thoughts, shyness, uncertainty, insistence, and so on. quality. In this case, the younger